Gəncə Dövlət Universiteti

# MAGİSTRATURA TƏHSİL SƏVİYYƏSİNİN

# 7002016 – TÜRK DÜNYASI TARİXİ İXTİSASLAŞMASI ÜÇÜN

# TƏHSİL PROQRAMI VƏ FƏNLƏR ÜZRƏ

# TƏLİM NƏTİCƏLƏRİ

GƏNCƏ-2025

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ PUBLİK HÜQUQİ ŞƏXS**

# MAGİSTRATURA TƏHSİL SƏVİYYƏSİNİN 7002016 – TÜRK DÜNYASI TARİXİ İXTİSASLAŞMASI ÜÇÜN

# TƏHSİL PROQRAMI VƏ FƏNLƏR ÜZRƏ TƏLİM NƏTİCƏLƏRİ

*Gəncə Dövlət Universiteti PHŞ-in "Ümumi tarix " kafedrasının 21.10.2025-ci il tarixli iclasında müzakirə edilərək bəyənilmiş və qəbul edilmişdir.*

**GƏNCƏ - 2025**

**Tərtib etdi:**

**Musayev Etibar Adil oğlu**
*"Ümumi tarix" kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent,*

**İsmayılzadə Saidə Cəfər qızı**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

**Rəsulova Nərgiz Aydın qızı**
*Tarix üzrə fəlsəfə doktoru, Dosent əvəzi*

**İlyasova Xatirə İsmayıl qızı**
*Tarix üzrə fəlsəfə doktoru, baş müəllim*

**Məmmədova Yeganə Ehsan qızı**
*Tarix üzrə fəlsəfə doktoru, baş müəllim*

## GİRİŞ

Təlim nəticələri anlayışı tələbəyə yönəlmiş ali təhsil sisteminin başlıca konseptual əsasını formalaşdırır. Təlim nəticələri təhsil prosesini tamamladıqdan sonra tələbənin nəyi bilməli, anlamalı və ya nümayiş etdirə bilməli olduğuna dair ifadələrdir.

Gözlənilən təlim nəticələri hər kurs və proqram üzrə tədris başlamazdan əvvəl yazılmalı və tədris prosesi zamanı professor-müəllim heyətinin üzvü və tələbə arasında dialoq vasitəsilə inkişaf etdirilməlidir.

Təlim nəticələrindən istifadə kvalifikasiyaların qiymətləndirilməsində iştirak edən müəssisələrə, işəgötürənlərə və digərlərinə kvalifikasiyaları daha aydın anlamağa yardım etmək üçün kvalifikasiyaların təsvirində istifadə edilən ortaq dildir.

Proqram və fənlərin təsvirində təlim nəticələrindən istifadə proqramın, yaxud modulun sonunda tələbələrdən nə gözlənil-diyini onlara daha aydın şəkildə çatdırır. Təlim nəticələrinin üstünlüklərindən biri ondan ibarətdir ki, tələbələrdən nəyə nail olmaq tələb olunduğu və nailiyyətlərini necə nümayiş etdirmək lazım olduğu aydın surətdə göstərilir.

Metodik tövsiyədə **7002016- Türk dünyası tarixi** ixtisaslaşması üçün təhsil proqramı üzrə təlim nəticələri, fənlər üzrə təlim nəticələri, eləcə də tədris olunan fənlərin və təhsil proqramının təlim nəticələrinin matrisi verilmişdir.

Təlim nəticələrinin kvalifikasiyaların qiymətləndirilməsində iştirak edən maraqlı tərəflərə daha aydın və anlaşıqlı olması üçün mütəmadi olaraq ayrı-ayrı fənlərin təlim nəticələri kafedrada yaradılmış komissiya tərəfindən ekspertiza edilir.

# 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7002016-Tarix ixtisasının Türk dünyası tarixi ixtisaslaşması üzrə Təhsil Proqramı(bundan sonra – “Təhsil Proqramı”) “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisaslarınTəsnifatı”na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübəkeçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirmək;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistrhazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır

(xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 saat təşkil edir.Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və öyrənmə metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsivə s. bölmələri də əks etdirməlidir.

1.6. Yalnız magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslar (ixtisaslaşmalar) üzrə məzun olan şəxslər təhsillərini doktorantura səviyyəsində davam etdirə bilərlər.

## 2. Məzunun səriştələri

2.1.Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

-peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;

-müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;;

-fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;;

-fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə etmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək,

- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək bacarığı;
-fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyrimütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək; ;
-istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq::
-davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.
2.2. Təhsil proqramının sonunda 7002016 Tarix ixtisasının ixtisaslaşmaları üzrə məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir

**Türk dünyası tarixi ixtisaslaşmasının peşə səriştələri:**
-Türk dünyası tarixində baş vermiş siyasi, sosial və iqtisadi hadisələri analiz etmək və bu hadisələr arasında əlaqələri müəyyənləşdirmək;
-Türk dünyası ilə əlaqədar bütün dövrlərə aid ilkin və ikinci dərəcəli mənbələri təhlil etmək, onların etibarlılığını və obyektivliyini qiymətləndirmək;
Türk dünyası xalqlarının müxtəlif dövrdə inkişaf proseslərini müqayisə etmək və oxşar/fərqli cəhətləri ayırd etmək;
-Türk dünyası tarixinə dair rəqəmsal və fiziki arxivlərlə işləmək, informasiyanı düzgün seçmək və sistemləşdirmək;
-Müxtəlif dövr tarixi hadisələrin bu günkü türk xalqlarının cəmiyyətinə təsirini dəyərləndirmək;

-Tarixlə yanaşı, sosiologiya, politologiya, iqtisadiyyat və beynəlxalq münasibətlər sahələrindən istifadə edərək kompleks təhlillər aparmaq.

## 5. İnfrastruktur və kadr potensialı

**5.1. 7002016 Tarix ixtisasının Türk dünyası tarixi ixtisaslaşması üzrə təhsil proqramının tədris, təlim və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:**

-Tədris və seminar otaqlarının müasir texniki avadanlıqlarla təchiz olunması;
- Kompüter otaqları və sürətli internet bağlantısı;
-Elektron resurslara çıxış imkanı olan, tarixə dair fundamental və müasir ədəbiyyatla təmin edilmiş kitabxana;
-Multimedia avadanlıqları, interaktiv lövhələr, proyektorlarlarla təchiz olunmuş otaqlar; o təcrübə və tədqiqat bazası olan arxivlər, muzeylərlə əməkdaşlıq, arxeoloji tədris bazaları ilə əməkdaşlığın mövcudluğu;
-Elmi dərəcəyə və elmi ada malik yüksək peşəkarlığa sahib olan kadrlar;
-Asudə vaxtın səmərəli keçirilməsi üçün kitabxana, oxu zallları, tələbə kafesi, idman sahələri;
-Sağlam təmiz ətraf-bağça, otaqlar, yanğın təhlükəsizlik sistemləri, tibb kabineti;

**5.2.** Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

**5.3.** Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

**6.1. 7002016 - Tarix ixtisasının Türk dünyası tarixi** ixtisaslaşması **üzrə məzunlar aşağıdakı sahələrdə və peşələrdə işləmək imkanı əldə edirlər:**

-Ümumtəhsil məktəblərində tarix müəllimi o Peşə və orta ixtisas məktəblərində müəllim
-Ali təhsil müəssisələrində müəllim və ya elmi işçi Elmi-tədqiqat institutlarında tədqiqatçı
-Muzey, arxiv, kitabxana və mədəniyyət müəssisələrində metodist və ya mütəxəssis o Qeyri-hökumət təşkilatlarında, layihələrdə və beynəlxalq qurumlarda tarix üzrə ekspert və ya təlimçi
-Dövlət idarəetmə orqanlarında humanitar sahələr üzrə mütəxəssis
**6.2.** Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.
**6.3.** Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.
**6.4.** Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

## 7.TƏHSIL PROQRAMI VƏ TƏDRIS FƏALIYYƏTI ÜZRƏ TƏLIM NƏTICƏLƏRI

## TÜRK DÜNYASI TARIXI IXTISASLAŞMASI ÜZRƏ TƏHSIL PROQRAMIN TƏLIM NƏTICƏLƏRI (PTN)

**PTN 1.** Türk dünyasının qədim və orta əsrlər tarixi dövrlərini izah edir.
**PTN 2.** Türk dövlətlərinin siyasi, iqtisadi və hərbi strukturlarını qiymətləndirir.

**PTN 3.** Türk xalqlarının mədəniyyət, incəsənət və ədəbiyyat inkişafını araşdırır.
**PTN 4.** Türk dünyasında dövlətçilik ənənələrinin formalaşmasını və qarşılıqlı təsirlərini şərh edir.
**PTN 5.** Türk xalqları arasında iqtisadi, sosial və dini proseslərin tarixini təhlil edir.
**PTN 6.** Müasir Türk dünyasının siyasi, sosial və iqtisadi inkişaf meyllərini qiymətləndirir.
**PTN 7.** Türk dünyası tarixinin araşdırılmasında arxiv və materialları istifadə etmə bacarığını nümayiş etdirir.
**PTN 8.** Türk xalqları arasında mədəni və siyasi əlaqələrin tarixi rolunu izah edir.

## 7002016- TÜRK DÜNYASI TARİXİ TƏHSİL PROQRAMI VƏ FƏNLƏR ÜZRƏ TƏLİM NƏTİCƏLƏRİ (FTN) ÜMUMİ FƏNLƏR

| **"Tadqiqat metodları" fənn üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN I.** Elmi tədqiqatların aparılması üçün kəmiyyət və keyfiyyət tədqiqat metodlarını, onların xüsusiyyətlərini və tətbiq sahələrini fərqləndirə və məqsədyönlü şəkildə tətbiq edə biləcək. |
| **FTN 2.** Fəaliyyət sahələrində tədqiqat sualının formalaşdırılması, hipotezlərin və tədqiqat dizaynının (eksperimental və ya müşahidə xarakterli) qurulması bacarığına yiyələnəcək. |
| **FTN 3**. Elmi mənbələrdən (kitabxana, elmi bazalar, elektron resurslar və s.) sistematik istifadə edərək mövcud bilikləri toplaya və onlara əsasən tədqiqat çərçivəsini formalaşdıracaq. |
| **FTN 4** Toplanmış verilənlərin ölçülməsi, statistik üsullarla işlənməsi, vizualizasiya edilməsi və tədqiqat məqsədlərinə uyğun olaraq təhlilini həyata keçirəcək. |
| **FTN 5.** Tədqiqat nəticələrini məntiqi strukturda təqdim etməyi, elmi məqalə və hesabatlar şəklində yazmağı, həmçinin nəticələri şifahi və yazılı formada auditoriyaya təqdim etməyi bacaracaq. |
| **FTN 6** Tədqiqatın etik və metodoloji prinsiplərinə riayət etməklə müstəqil və ya qrup halında tədqiqat aparacaq, layihə və dissertasiya işlərinin hazırlanmasında metodoloji əsasları düzgün tətbiq edə |

| |
|---|
| biləcək. |
| **“Akademik yazı və etika" fənn üzrə təlim nəticələri (FTN)** |
| **FTN I.** FTN 1. Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse. dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| **FTN 2.** Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| **FTN 3**. Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi ve plagiatdan yayınmağı bacaracaq. |
| **FTN 4** Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| **FTN 5.** Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| **FTN 6** Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etık dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| **“Tədqiqat analitikası” fənn üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN I.** Məlumatların növlərini və tədqiqatın məqsədinə uyğun olaraq məlumatların toplanma üsullarını təyin etməklə elmi-tədqiqat üçün effektiv məlumat toplama strategiyası hazırlayacaq. |
| **FTN 2.** Tədqiqat məqsədlərinə uyğun olaraq məlumatların ilkin emalı (təmizlənməsi, kodlaşdırılması, strukturlaşdırılması) və təhlilə hazır vəziyyətə gətirilməsi proseslərini yerinə yetirəcək. |
| **FTN 3**. Fərqli proqram təminatlarında ("Excel", "EViews", "SPSS", "Python", "R", "Matlab" və s.) məlumatları analiz edərək sadə və mürəkkəb statistik göstəricilər əsasında nəticələr çıxaracaq. |
| **FTN 4** Tədqiqatlarda istifadə olunan əsas təhlil metodlarını (kəmiyyət, keyfiyyət, qarışıq və eksperimental təhlil üsulları) sahəyə uyğun şəkildə tətbiq edərək analitik nəticələr əldə edəcək. |
| **FTN 5.** Analitik nəticələri vizual təqdimetmə alətləri (qrafiklər, diaqramlar, cədvəllər və s.) vasitəsilə elmi əsaslarla təqdim edəcək və nəticələri düzgün interpretasiya edəcək. |

| |
|---|
| **FTN 6** FTN 6. Tədqiqat nəticələrinə əsaslanaraq məntiqi və sübutlara əsaslanan elmi rəy, tövsiyə və Ümumiləşdirmələr hazırlayaraq tədqiqat hesabatları və elmi sənədlər tərtib edə biləcək. |

**Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər**

| **Türk dünyasi tarixinin müasir problemləri** |
|---|
| FTN-1.Türk dünyasının ortaq dəyərlərinin coğrafiyasını müəyyənləşdir və ətraflı bilik nümayiş etdirir; |
| FTN-2.Dünya tarixşünaslığında Türk sivilizasiyası məsələsini araşdırmağı bacarır; |
| FTN-3.Türk xalqlarının tarixinə dair mənbələri araşdırmağı, onları şərh etməyi, türkologiyanın əsas məsələlərini göstərməyi bacarır; |
| FTN-4.Osmanlı imperiyasında türk tarixinin öyrənilməsi, burada mövcud olan türkçülük problemini müəyyənləşdirir; |
| FTN-5.Çağdaş türkologiyanın qarşısında duran vəzifələri bilir; |
| FTN-6.Müasir dövrdə türk dünyasına yanaşmalarını, türk dövlətləri arasındakı inteqrasiya proseslərini öyrənir və şərh edir; |
| FTN-7.Türk xalqlarının ortaq dil problemini şərh edə bilir; |

| **TÜRK DÜNYASI TARİXİNİN TƏDRİSİNİN METODİKASI** |
|---|
| **FTN 1**. Türk dünyası tarixinin tədrisi,təlim-tərbiyə və tədqiqat işinin əsas istiqamətlərini müəyyən etməyi bacarır. |
| **FTN 2**.Türk dünyası tarixi haqqında mənbələri araşdırmaq metodlarını öyrənir. |
| **FTN 3**.Müəllimin elmi tədqiqatçılq qabiliyyəti,tarixi sənəd və elmi ədəbiyyatlarla işləmək qabiliyyətinin yaradılması metodlarını öyrənir. |
| **FTN 4**.Türk dünyası tarixinin metodologiyası və metodikasının elmi idraki və səbəb-nəticə əlaqələrini araşdıraraq təhlil etməyi bacarır. |
| **FTN 5**.İKT-dən istifadə etməyi, elmi məqalə və tezislər yazmağı, tarixi mənbələrlə işləməyi öyrənir. |
| **FTN 6**.Türk dünyası tarixinin metodologiyası və metodikası fənninini mənimsədiklərini pedaqoji təcrübədə, pedaqoji sənədlər tərtib etməkdə, araşdırmaq bacarıqlarını ictimai işlərdə, elmi konfranslarda nümayiş etdirir. |

| Türk xalqlarının mənbəşünaslığı və tarixşünaslığı |
|---|
| **FTN1.**Antik dövrdən müasir günümüzə qədər türk xalqlarının mədəni,siyasi və iqtisadi inkişafını bir neçə min ili əhatə edən dövrdə qeydə alınmış əsərləri vasitəsiylə təsvir edə bilir |
| **FTN2.** Qədim Yunan və Roma müəlliflərinin əsərləri əsasında türk tayfaları haqqında müxtəlif məlumatlar toplayır, və bu əsasda türk xalqlarının ulu əjdadlarının dünya tarixində tutduqları mövqe və oynadıqları rol haqqında məlumatları və tarixşünaslığını şərh edir. |
| **FTN3.** Fars və ərəb mənbələri əsasında türk xalqlarının qədim və orta əsrlər dövründə siyasi və iqtisadi inkişaf xüsusiyyətlərini müqayisəli tarixi metod vasitəsiylə əldə etdiyi məlumatları və müasir tarixşünaslığı tapşırıqda tətbiq edə bilir. |
| **FTN4.** Qədim Çin müəlliflərinin əsərlərindən bəhrələnərək qədim və orta əsrlər dövründə türk xalqlarının tarixinin ən önəmli hadisələri haqqında məlumatları və türk xalqlarının tarixinin tarixşünaslığını izah edərək, onlar arasında səbəb və nəticə əlaqələrini qruplaşdıraraq təhlil edir |
| **FTN5.** Türk xalqlarında qədim və orta əsr dövründə baş verən proseslərin səbəb və nəticələrini fars və ərəb mənbələri əsasında ətraflı təhlil edə bilir, tarixşünaslığını şərh edir. |
| **FTN6.** Qədim Türk Orxon Yenisey abidələri əsasında türk xalqlarının tarixinin qədimliyini tutarlı faktlarla əsaslandıra bilir və bu fəndən əldə etdiyi bilikləri təcrübədə istifadə etmək üçün elmi pedaqoji və metodiki araşdırmalar apararaq, təhlil edərək, fərziyyə və mülahizələr irəli sürür. |
| **FTN7.** Orta əsr və müasir Avropa müəlliflərinin əsərləri ilə tanış olaraq türk xalqlarının beynəlxalq aləmdə rolu və yeri haqqında məlumatlar əldə bilir, proqnozlar verərək, onların gələcək inkişaf perspektivləri haqqında əhəmiyyətli nəticələr çıxararaq sintez edə bilir. |
| **FTN8**. Türk xalqlarında qədim,orta, yeni və müasir dövrdə mədəniyyət sahəsində əldə edilmiş nailiyyətlər bilikləri təcrübədə istifadə etmək üçün elmi – pedaqoji və metodiki təhlillər apararaq, tarixşünaslıqdakı ziddiyyətlərlə əlaqədar aldığı nəticələri yaradıcılıqla təcrübədə tətbiq edir; |

| Altay türklərinin tarixi və mədəniyyəti |
|---|

| |
|---|
| **FTN 1**. Altay coğrafiyasını və buradakı qədim türk etnosları elmi cəhətdən müəyyən edərək geniş şəkildə təsvir edir, onun dünya tarixindəki yerini, mənbəşünaslıq və tarixşünaslıq bazasını bilir. |
| **FTN 2.** Altay regionunu qədim və erkən orta əsr dövrünün türk etnosları və onların mədəniyyətlərini mənbələr və tarixşünaslıq materialları əsasında müəyyən edir. |
| **FTN 3.** Altay türklərinin eradan əvvəlki və sonrakı dövrlərdəki tarixi və ictimai-siyasi vəziyytini şərh edir. |
| **FTN 4.** Altay türklərində dövlətçilik ənənələrinin meydana gəlməsi və ortaq mədəniyyətə malik olmasını mənbələr və tarixi materiallar əsasında analiz edir. |
| **FTN 5.** Altay türklərində axirət dünyasına və tenqriçilik dini inanc adətlərini qiymətləndirir. |
| **FTN 6.** Altay türklərində ictimai münasibətlər və məişət adətləri, türk cəmiyyətində ailə münasibətləri, dəfn adətləri, şənliklər və s. kimi münasibətləri dəyərləndirir. |

| **Türk xalqlarının etnogenezi** |
|---|
| **FTN1.** Mənbələr əsasında Türk xalqlarının etnogenezi fənninin vəzifələrini, elmi istiqamətlərini və tədqiqat metodlarını təhlil edir, onların oxşar və fərqli cəhətlərini sadalayır, mülahizələrini təqdim edir. |
| **FTN 2.** Türk xalqının soykökü tarixinin mənbələrini araşdıraraq, nəticələrini təqdim edir. |
| **FTN 3.** Ən qədim türk etnoslarının formalaşmasını, bir-biri ilə qarşılıqlı əlaqələrini mənbələr əsasında təhlil edir |
| **FTN 4** Türk dilinin və xalqının təşəkkülü barəsində mənbələri və faktları dəyərləndirir, müqayisələr apararaq əlaqələndirir. |
| **FTN 5.** Türk xalqlarının etnik tərkibininin xüsusiyyətlərini haqda mənbələr əsasında mülahizələr irəli sürür, təqdimatlar edir. |
| **FTN 6.** Orta əsrlərdə türk calqlarında baş verən etnik prosesləri təhlil edir |
| **FTN 7.** Türk xalqlarının etnogenezi haqqındakı müasir konsepsiyalara münasibət bildirir və qiymətləndirir |

| Keçmiş sovetlər birliyi ərazisində yaranmış müstəqil türk dövlətləri |
|---|
| **FTN-1.**SSRİ-də müstəmləkəçilik siyasətini, Türk xalqlarının müasir dövr siyasi və iqtisadi inkişaf xüsusiyyətlərini elmi cəhətdən müəyyənləşdirir. |
| **FTN-2.**Türk xalqlarının müasir dövr tarixinin ən önəmli hadisələrinin mahiyyətini faktlar əsasında şərh edir. |
| **FTN-3.**Türk xalqlarının müasir tarixini elmi cəhətdən şərh edir, dövlətlərin xüsusiyyətlərini təsvir edir, əhəmiyyətli nəticələr çıxararaq nümayiş etdirir. |
| **FTN-4.**Türk xalqlarında müasir dövrdə baş verən prosesləri sxematik təsvir edir. |
| **FTN-5.** Türk xalqlarında müasir dövrdə mədəniyyət sahəsində əldə edilmiş nailiyyətlər haqqında məlumatlar verir və qarşılıqlı şəkildə türk dövlətlərinin mədəni inkişaf səviyyətlərinin struktur modelini qurur. |
| **FTN-6.** Dövlətlərarası, regional və qlobal münaqişələr və onların doğurduğu fəsadların müqayisəli təhlili bacarıqlarını aşılayır. |
| **FTN-7.** Müstəqil türk dövlətlərinin beynəlxalq aləmdə rolu və yerini başa düşür, bu fəndən əldə etdiyi bilikləri təcrübədə istifadə etmək üçün elmi – pedaqoji və metodiki təhlillər apararaq, aldığı nəticələri yaradıcılıqla təcrübədə tətbiq edir və . |

| Orta əsrlər dövründə türk dövlətləri |
|---|
| **FTN-1.**Türk dövlətlərinin varisliyi, bir-biri ilə qarşılıqlı əlaqələrinin dünyagörüşün ,inkişafına türklərdə məmlük sistemi, onun yaranma şərtlərinin tələbələrə izah edilməsi |
| **FTN2.**Türk dövlətləri olan Qərbi Hunlar, Eftalitlər,Göytürklər, Uyğurlar və Qırğızlar haqqında tələbələrdə təsəvvür yaratmaq və bu dövlətlərin ictimai-siyasi həyatı haqqında məlumat vermək |
| **FTN3.**Türk xalqlarından olan Xəzərlər, Bulqarlar, Oğuzlar, Kidanlar, Qarakitaylar, Türkeşlər, Karluqlar, Peçenqlər və Qıpçaqlar haqqında |

| |
|---|
| tələbələrdə təsəvvür formalaşdırmaq və türk xalqlarının bu dövrdəki ictimai-siyasi quruluşu haqqında məlumatları tələbələrə aşılamaq |
| **FTN4.** Türk dövlətçiliyinin formalaşmasında mühüm rol oynamış Qaraxani, Qəznəvi, Böyük Səlcuq, Xarəzmşahlar, Şimali Qafqazda erkən-orta əsr türk dövlətləri haqqında tələbələrdə təsəvvür yaratmaq |
| **FTN5.** Orta əsr Türk xalqlarının siyasi həyatında mühüm rol oynamış Monqollar – Qızıl Ordan, Teymurilər, Qazan, Həştərxan və Sibir xanlıqları haqqında tələbələrdə təsəvvür formalaşdırmaq |
| **FTN6.** Hindistan Türk dövlətləri (Dehli sultanlığı, Böyük Moğol imperiyası) Osmanlı dövlətinin yaranması və inkişafıOsmanlı dövləti XVI-XVII əsrlərdə haqqında məlumatları tələbələri məlumatlandırmaq |

**Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər**

| **Seçmə fənlər I blok**<br>**1.1.Türk xalqları yeni dövrdə** |
|---|
| **FTN1.** Fənnin ümumi tədrisi prosesində tələbələrdə Rusiya imperiyasının müstəmləkəçilik siyasəti haqqında təsəvvür formalaşdırmaq |
| **FTN2.**Türk xalqlarının yeni və müasir dövrdə siyasi və iqtisadi inkişaf xüsusiyyətlərinin tələbələrə aşılanması. |
| **FTN3.**Türk xalqlarının yeni və müasir dövrdə tarixinin ən önəmli hadisələri haqqında tam təsəvvür formalaşdırmaq |
| **FTN4.**Türk xalqlarında yeni və müasir dövrdə baş verən proseslərin səbəb və nəticələrinin tələbələrə öyrədilməsi |
| **FTN5.**Türk xalqlarında yeni və müasir dövrdə mədəniyyət sahəsində əldə edilmiş nailiyyətlər haqqında məlumatların tələbələrə aşılanması |
| **FTN6.**Dövlətlərarası, regional və qlobal münaqişələr və onların doğurduğu fəsadlar haqqında təsəvvür tələbələrdə təsəvvür yaratmaq |
| **FTN7.**Müstəqil türk dövlətlərinin beynəlxalq aləmdə rolu və yerinin tələbələrə izah edilməsi |

| **1.2.Hydər Əliyev və müasir türk dünyası** |
|---|
| **FTN** 1.H.Əliyevin Türk dünyası ilə siyasətində təlim tərbiyə və |

| |
|---|
| tədqiqat işinin əsas istiqamətlərini müəyyən etməyi bilir. |
| **FTN** 2.H.Əliyevin türk dünyası ilə mənəvi, tarixi, mədəni və siyasi cəhətdən sıx bağlılığı haqqında mənbələri araşdırmaq metodlarını bilir. |
| **FTN** 3.H.Əliyevin türk dünyasına, türk kimliyinə və mədəniyyətinə yanaşması və apardığı siyasi mübarizə, türk dünyasının birliyi uğrunda misilsiz xidmətləri haqqında bilir |
| **FTN** 4.Türk dünyasının fenomenal liderinin şəxsiyyəti və yorulmaz mübarizəsi haqqında tədqiqat apara bilir. |
| **FTN** 5. H.Əliyevin fəaliyyətini, türk dünyasının mənəvi, tarixi, mədəni və siyasi bağlılığında onun misilsiz xidmətlərini elmi məqalə və tezislərlə işıqlandırmağı bilir. |
| **FTN** 6. Fəndən mənimsədikləri bilikləri təcrübədə istifadə etmək üçün elmi, pedaqoji və metodiki təhlilər apararaq,aldığı nəticələri yaradıcılıqla təcrübədə tətbiq edir. |

| **II blok**<br>**2.1. Hunlar-tarixi və mədəniyyəti** |
|---|
| **FTN 1**. Hun türklərinin tarixində müxtəlif vaxtlarda baş vermiş hadisələrini elmi cəhətdən analiz edərək geniş şəkildə təhlil edir, Hun imperiyası və onun dünya tarixindəki yerini izah edir. |
| **FTN 2.**Hun dövlətinin yaranmasının ümumdünya tarixində yerini və əhəmiyyətini aydınlaşdırır. |
| **FTN 3.**Hun imperiyasının dövlət quruluşunun siyasi mahiyyətini təhlil edir. |
| **FTN 4.**Türklərin Mərkəzi Asiyada, Orta Asiyada və Qərbi Avropadakı fəthlərinin strateji və tarixi mahiyyətini analiz edir |
| **FTN 5.**Hun dövlətinin Çinlə münasibətlərinin mahiyyətini müəyyən edir. |
| **FTN 6.**Nun imperiyasındakı ictimai-siyasi vəziyyəti təhlil edir. |
| **FTN 7.**Hun imperatorluğunun Qərbi Avropanın siyasi və iqtisadi həyatındakı rolunun əsas xüsusiyyətlərini dəyərləndirir. |
| **FTN 8.** Hunların məişəti, təsərrüfatı, yazı sistemlətinin əsas cəhətlərini qiymətləndirir. |

| **2.2.Orta əsrlərdə türk xalqlarının mədəniyyəti** |
|---|

| |
|---|
| **FTN 1**. Orta əsrlər türk xalqlarınamənsub adət-ənənələri ümumiləşdirir |
| **FTN2.** Türk xalqlarının erkən orta əsr mədəniyyəti və xüsusilə ictimai quruluşlarını mənbələr əsasında müəyyən edir |
| **FTN3.** Orta əsrlərdə türk xalqlarında hərb işi və ordu quruculuğu tarixi mərhələlərlə və faktlarla şərh edir |
| **FTN4.** Orta əsr türk xalqlarında elm, təhsil, məktəb kimi sahələri faktlarla analiz edir |
| **FTN5.** Orta əsrlər türk sivilizasiyasının digər sivilizasiyalarla qarşılıqlı əlaqələrini qiymətləndirir |
| **FTN6.** Türk xalqlarının Orta əsrlərdə mədəni inkişafının başlıca xüsusiyyətlərini tarixi materiallar əsasında dəyərləndirir. |

| **III blok**<br>**3.1. Qafqaza türklərin axımı (qədim və orta əsrlər)** |
|---|
| **FTN 1.**Qədim və orta əsrlər dövründə türk tayfalarının Cənubi Qafqaza axınlarını elmi cəhətdən analiz edərək geniş şəkildə təhlil edir, onun dünya tarixindəki yerini ümumiləşdirir. |
| **FTN 2.** Türklərin Qafqazda məskunlaşması tarixini xronoloji çərçivədə faktlar əsasında müəyyən edir. |
| **FTN3.** Savirlər, Avar, Utiqur və kutriqur türk tayfalarının Qafqaza axınlarının sosial-iqtisadi və siyasi amillərini anlayır və faktlarla şərh edir. |
| **FTN 4.** Bolqarların və Xəzərlərin Cənubi Qafqaza axın və yürüşlərini tarixi siyasi baxımından izah edərək, onlar arasında səbəb və nəticə əlaqələrini analiz edir. |
| **FTN 5**. Qıpçaq tayfaları və Səlcuqların Qafqaza axınları və onların Qafqazın sosial-iqtisadi, siyasi və mədəni həyatıda oynadıqları rolu vətəndaşlıq mövqeyi baxımından nümayiş etdirir və ətraflı qiymətləndirir. |
| **FTN 6.**Türk xalqlarının Qafqaza axınları nəticəsində türk – islam amilinin regionun siyasi mənzərəsinə təsirini sistemli təhlil edərək, təqdimatlar hazırlayır. |
| **FTN 7**. Türk xalqlarının Qafqaza axınlarının Orta əsrlər dövründə beynəlxalq münasibətlərə təsiri və onun siyasi-iqtisadi xüsusiyyətlərini müzakirə edir, əhəmiyyətli nəticələr çıxardır. |

| 3.2. Türk xalqlarının dövlətçilik tarixi, (qədim və orta əsrlar) |
|---|
| **FTN-1.** Qədim və orta əsrlər dövründə türklərin dövlətçilik tarixilə bağlı bilikləri ümumiləşdirir. |
| **FTN-2.**İlkin idarəetmə orqanları haqda geniş və ətraflı şərh edir. |
| **FTN-3.** Türklərin qədim və orta əsrlər dövründə dövlətçilik tarixləri haqda elmi əsaslarla analiz edir. |
| **FTN-4.**Türk xalqlarının müxtəlif dövlətlərinin təşəkkülü, dövlət quruluşları, idarəetmə sistemləri barədə elmi anlayışlar formalaşdırır. |
| **FTN-5.**Türk dövlətlərinin idarəetmə sistemlərini müqayisə edə bilir. |
| **FTN-6.**Türk dövlətlərinin bəşər tarixində tutduqları yeri müəyyənləşdirməyi bacarırlar. |
| **FTN-7.**Türk dövlətlərində mövcud olmuş torpaq mülkiyyət formalarını, onların zamanla dəyişmələrini müzakirə və təhlil edirək dəyərləndirir. |

| IV blok<br>4.1. XX əsrdə türklərə qarşı soyqırım və köçürülmə siyasəti |
|---|
| **FTN 1**. XX əsrdə türk xalqlarına qarşı soyqırım və köçürülmə siyasətinin əsas istiqamətlərini müəyyən edir. |
| **FTN 2.** XX əsrdə türk xalqlarına qarşı soyqırım və köçürülmə siyasəti haqqında sovet rejiminin türk xalqlarının milli mənəviyyatını məhv etmək və ruslaşdırma siyasəti aparmaq məqsədini analiz edir |
| **FTN 3.** XX əsrdə türk xalqlarına qarşı soyqırım və köçürülmə siyasəti haqqında mənbələri müəyyən edir. |
| **FTN 4.** XX əsrdə türk xalqlarına qarşı soyqırım və köçürülmə siyasəti haqqında səbəb-nəticə əlaqələrini analiz edir. |
| **FTN 5.**XX əsrdə türklərə qarşı soyqırım və köçürülmə siyasətinin sovet rejiminin kommunist ideologiyası altında həyata keçirdiyi pantürkizm damğasına qarşı türk xalqlarının mübarizəsini, əzmkarlığını tarixi ədəbiyyatlar əsasında qiymətləndirir. |
| **FTN 6.**XX əsrdə türk xalqlarına qarşı soyqırım və köçürülmə |

| |
|---|
| siyasətinə cavab olaraq türk xalqlarının müstəqillik uğrunda apardığı mübarizə tarixini araşdırmaq bacarıqlarını ictimai işlərdə, elmi konfranslarda dəyərləndirir. |

| **4.2. Mərkəzi Asiyada türk dövlətləri(Qədim və Orta əsrlər)** |
|---|
| **FTN 1**. Altayın prototürk etnosları haqqında biliyi ümumiləşdirir. |
| **FTN 2**. Mərkəzi Asiyada yaranmış olan türk dövlətlərinin təzahürünü analiz edir. |
| **FTN 3**. Mərkəzi Asiyada yaranmış türk dövlətlərinin qarşılıqlı münasibətlərinin mahiyyətini analiz edir |
| **FTN 4**. Faşizm təhlükəsinə qarşı dünya xalqlarının antifaşist hərəkatına qoşulması və onun tarixi əhəmiyyətini qiymətləndirir. |
| **FTN 5**. III-V əsrlərdə Mərkəzi Asiyada yaranmış türk dövlətlərinin qarşılıqlı münasibətlərini müəyyən edir. |
| **FTN 6**.Mərkəzi Asiyanın erkən orta əsrlər, yeni və ən yeni dövrlərində yaranmış türk dövlətlərinin ictimai, siyasi və mədəni həyatını müəyyən edir və dəyərləndirir. |

| **V blok**<br>**5.1. Türk xalqları XX əsrin I rübündə beynəlxalq münasibətlərdə** |
|---|
| **FTN 1.** Tələbə XX əsrdə türk xalqlarının beynəlxalq münasibətlər sistemindəki əsas hadisələri və prosesləri izah edə bilir. |
| **FTN2.** Tələbə sovet dövründə və müstəqillik dövründə türk dövlətlərinin xarici siyasət strategiyalarını müqayisəli şəkildə təhlil edə bilir. |
| **FTN3.** Tələbə türk xalqlarının beynəlxalq təşkilatlarda (BMT, İƏT, Türk Dövlətləri Təşkilatı və s.) iştirakının əhəmiyyətini şərh edə bilir. |
| **FTN4.** Tələbə türk dövlətləri arasında diplomatik, iqtisadi və mədəni əlaqələrin inkişaf mexanizmlərini müəyyən edə bilir. |
| **FTN5.** Tələbə qlobal güclərlə (ABŞ, Rusiya, Çin, Avropa İttifaqı və s.) türk dövlətlərinin münasibətlərini analiz edə bilir. |
| **FTN6.** Tələbə XX əsrdə türk xalqlarının beynəlxalq münasibətlərdə tutduğu mövqenin müasir dövrdəki önəmini ümumiləşdirə bilir. |

| **5.2. XIX əsrin sonu XX əsrin əvvəllərində türk dünyasında milli siyasi oyanış** |
|---|

| |
|---|
| **FTN** 1. Tələbə XIX əsrin sonları və XX əsrin əvvəllərində türk dünyasında milli siyasi oyanışın əsas səbəb və nəticələrini izah edə bilir. |
| **FTN** 2. Tələbə İsmayıl Qaspıralı, Əhməd Bəy Ağaoğlu, Əli bəy Hüseynzadə kimi maarifçi və siyasi xadimlərin fəaliyyətini qiymətləndirə bilir. |
| **FTN** 3. Tələbə Osmanlı, Rusiya və İran imperiyalarında türk xalqlarının milli-azadlıq hərəkatlarının xüsusiyyətlərini müqayisəli şəkildə təhlil edə bilir. |
| **FTN** 4. Tələbə panislamizm, pantürkizm və digər ideoloji cərəyanların türk dünyasında milli şüurun formalaşmasındakı rolunu şərh edə bilir. |
| **FTN** 5. Tələbə milli siyasi hərəkatların inkişafında qəzetçilik, təhsil və ictimai təşkilatların əhəmiyyətini dərk edir və nümunələr gətirə bilir. |
| **FTN** 6. Tələbə XIX-XX əsrlərdə türk xalqlarının milli siyasi oyanışının müasir dövrdəki dövlətçilik və milli kimlik formalaşmasına təsirini ümumiləşdirə bilir. |

| **“Elmi-pedaqoji təcrübə” üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2. Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3. Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4. Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifadə etməyi öyrənəcək. |
| FTN 5 Tadris faaliyyatinda acio ya salis akademik ünsiyyat |

| |
|---|
| qurmag öz bilik va tadqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6. Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

| **"Elmi-tədqiqat təcrübəsi" üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. İxtisas sahəsində aktual elmi-tədqiqat mövzularını müəyyənləşdirmək, tədqiqatın məqsəd və vəzifələrini dəqiq formalaşdırmaq bacarığına malik olacaq. |
| FTN 2. Konkret tədqiqat məqsədlərinə uyğun müasir elmi-tədqiqat metodlarını (situasiya analizi, əməliyyat-taktiki təhlil, modelləşdirmə, statistik metodlar və s.) seçmək və səmərəli tətbiq etmək bacarığına yiyələnəcək. |
| FTN 3. Əldə etdiyi eksperimental və nəzəri məlumatların işlənməsi, sistemləşdirilməsi, nəticələrin emal edilməsi, statistik analizinin aparılması və nəticələrin şərh olunması üzrə bacarıqlar əldə edəcək. |
| FTN 4. Aparılmış tədqiqatların nəticələrini proseslərin optimallaşdırılması, tətbiqi və innovativ texnologiyaların işlənib hazırlanması istiqamətində tətbiq etmək bacarığına malik olacaq. |
| FTN 5. Tədqiqat nəticələrini elmi məqalə, hesabat, dissertasiya formatında təqdim etmək, elmi konfrans və seminarlarda çıxış etmək, elmi diskussiyalarda iştirak etmək bacarığı əldə edəcək. |
| FTN 6. Tədqiqat fəaliyyətində elmi etika prinsiplərinə (plagiatın qarşısının alınması, düzgün istinad qaydaları, müəllif hüquqlarına hörmət və s.) əməl etməyi və elmi məsuliyyəti dərk etməyi öyrənəcək. |

| **"Magistrlik dissertasiyası" üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Tədqiqat problemini əsaslandırmaq, məqsəd və vəzifələri dəqiq müəyyənləşdirmək, kompleks plan qurmaq, nəzəri və analitik üsullarla tədqiqatı tam həcmdə yerinə yetirmək bacarığına yiyələnəcək. |
| FTN 2. İxtisas sahəsində elmi-nəzəri və praktiki problemləri dərindən təhlil etmək, təhlükəsizlik risklərinin qiymətləndirilməsi |

| |
|---|
| və operativ qərarların qəbulunda müasir elmi yanaşmaları tətbiq etməklə problemlərin müstəqil həllini təqdim etmək bacarığını nümayiş etdirəcək. |
| FTN 3. Eksperimental və nəzəri nəticələrin riyazi modelləşdirilməsi, sistemli təhlili, analiz edilməsi və ümumiləşdirilməsi üzrə səriştə qazanacaq. |
| FTN 4. Əldə olunan elmi nəticələrin ixtisas üzrə tətbiqini əsaslandırmaq, praktik tövsiyələr hazırlamaq və innovativ yanaşmalar təqdim etmək bacarığı əldə edəcək. |
| FTN 5. Dissertasiya işinin məzmununu elmi auditoriya qarşısında aydın, əsaslandırılmış və strukturlaşdırılmış formada təqdim etmək, müdafiə etmək və elmi müzakirələrdə iştirak etmək bacarığına yiyələnəcək. |
| FTN 6. Dissertasiya işində elmi etika və intizam qaydalarına riayət etmək, müəllif hüquqlarına hörmət, istinad qaydalarına əməl etmək və öz tədqiqat fəaliyyətinə məsuliyyətlə yanaşmaq bacarığını nümayiş etdirəcək. |

**Əlavə 2**

**Təhsil Proqramının və tədris fəaliyyətlərinintəlim nəticələrinin matrisi**

**Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi**

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisaslaşmanın təhsil proqramının təlim nəticələrinin əldə olunmasına necə dəstək verdiyini müəyyənləşdirməlidir.

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 |
| Tədqiqat metodları | x | x | x | x | x | x | | |
| Akademik yazı və etika | x | | x | x | | | | x |
| Tədqiqat analitikası | | | | | x | | x | |
| **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər** | | | | | | | | |
| Türk dünyası tarixinin müasir problemləri | x | x | x | x | | | | |
| Türk dünyası tarixinin tədrisinin metodikası | | x | x | | | | | |
| Türk xalqlarının tarixinin mənbəşünaslığı və tarixşünaslığı | | x | x | x | | | | |
| Altay türklərinin tarixi və mədəniyyəti | x | x | | x | | | | |
| Türk xalqlarının etnogenezi | x | x | | | x | x | | |
| Keçmiş sovetlər birliyi ərazisində yaranmış müstəqil | x | x | x | | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| türk dövlətləri | | | | | | | | |
| Orta əsrlər dövründə türk dövlətləri | **x** | **x** | | **x** | **x** | **x** | **x** | |
| **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | | | | | | | | |
| **I blok** | | | | | | | | |
| 1.1. Türk xalqları yeni dövrdə | | **x** | **x** | | **x** | **x** | | **x** |
| 1.2. Hydər Əliyev və müasir türk dünyası | | **x** | | | | **x** | **x** | **x** |
| **II blok** | | | | | | | | |
| **2.1.**Hunlar-tarixi və mədəniyyəti, , | **x** | **x** | **x** | | | **x** | | |
| 2.2.Orta əsrlərdə türk xalqlarının mədəniyyəti | | **x** | **x** | **x** | **x** | **x** | | |
| **III blok** | | | | | | | | |
| 3.1.Qafqaza türklərin axımı (qədim və orta əsrlər), | | **x** | **x** | | | **x** | | |
| 3.2.Türk xalqlarının dövlətçilik tarixi, (qədim və orta əsrlar) | | **x** | **x** | | **x** | | **x** | **x** |
| **IV blok** | | | | | | | | |
| 4.1.XX əsrdə türklərə qarşı soyqırım və köçürülmə siyasəti, | | **x** | | **x** | | | | |
| 4.2.Mərkəzi Asiyada türk dövlətləri(Qədim və orta əsrlər) | | **x** | **x** | | | | | **x** |
| **V blok** | | | | | | | | |
| 5.1.Türk xalqları XX əsrin I rübündə beynəlxalq münasibətlərdə | | **x** | **x** | **x** | | | | **x** |
| 5.2.XIX əsrin sonu XX əsrin əvvəllərində türk dünyasında | | **x** | **x** | **x** | | **x** | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| milli siyasi oyanış | | | | | | | | |
| Elmi-pedaqoji təcrübə | | | **x** | | | x | | |
| Elmi tədqiqat təcrübəsi | | | **x** | | | **x** | **x** | |
| Magistrlik dissertasiyası | | | **x** | | **x** | | **x** | |

**Mündəricaat**

GİRİŞ..........................................................................................4
Ümumi müddəalar.........................................................................5
Məzunun səriştələri.......................................................................6
Türk dünyası tarixi ixtisaslaşmasının peşə səriştələri.................7
İnfrastruktur və kadr potensialı.....................................................8
Karyera imkanları və ömürboyu təhsil.........................................9
Türk dünyasi tarixi ixtisaslaşmasi üzrə təhsil proqramin təlim nəticələri (PTN)........................................................................................9
Tədqiqat metodları ....................................................................10
Akademik yazı və etika ............................................................11
Tədqiqat analitikası ...................................................................11
Türk dünyası tarixinin müasir problemləri..........................................12
Türk dünyası tarixinin tədrisinin metodikası.................................12
Türk xalqlarının tarixinin mənbəşünaslığı və tarixşünaslığı.............13
Altay türklərinin tarixi və mədəniyyəti............................................13
Türk xalqlarının etnogenezi...........................................................14
Keçmiş sovetlər birliyi ərazisində yaranmış müstəqil türk dövlətləri.........................................................................................15
Orta əsrlər dövründə türk dövlətləri..................................................15
Türk xalqları yeni dövrdə................................................................16
Hydər Əliyev və müasir türk dünyası.............................................16
Hunlar-tarixi və mədəniyyəti..........................................................17
Orta əsrlərdə türk xalqlarının mədəniyyəti........................................17
Qafqaza türklərin axımı (qədim və orta əsrlər).................................18
Türk xalqlarının dövlətçilik tarixi, (qədim və orta əsrlar)...................19
XX əsrdə türklərə qarşı soyqırım və köçürülmə siyasəti....................19
Mərkəzi Asiyada türk dövlətləri(Qədim və orta əsrlər)......................20
Türk xalqları XX əsrin I rübündə beynəlxalq münasibətlərdə..........20
XIX əsrin sonu XX əsrin əvvəllərində türk dünyasında milli siyasi oyanış...........................................................................................20
Elmi-pedaqoji təcrübə.................................................................21
Elmi tədqiqat təcrübəsi...............................................................22
Magistrlik dissertasiyası.............................................................22
Təhsil Proqramının və tədris fəaliyyətlərinintəlim nəticələrinin matrisi.........................................................................................23

# MAGİSTRATURA TƏHSİL SƏVİYYƏSİNİN
# 7002016 – TÜRK DÜNYASI TARİXİ İXTİSASI ÜÇÜN

## TƏHSİL PROQRAMI VƏ FƏNLƏR ÜZRƏ
## TƏLİM NƏTİCƏLƏRİ

Yığılmağa verilmişdir: 24.10.2025-ci il.
Çapa imzalanmışdır: 04.11.2025-ci il.
kağız formatı-(210x279) ¼, kağız №1,
1,8uçot çap vərəqi, tiraj 50.
Rezoqrafiya üsulu ilə nəşr olunmuşdur.

Gəncə Dövlət Universitetinin nəşriyyatı.
Rezoqrafiya üsulu ilə çap olunmuşdur.
Ünvan: GDU-nun nəşriyyat şöbəsi,
Gəncə şəhəri,Heydər Əliyev prospekti 429